# AZƏRBAYCAN ÜZGÜÇÜLÜK FEDERASİYASI

## İctimai Birliyinin

## N İ Z A M N A M Ə S İ

**(3-cü redaksiyada)**

## I. ÜMUMİ MÜDDƏALAR

1.1. **« AZƏRBAYCAN ÜZGÜÇÜLÜK FEDERASİYASI» İctimai Birliyi** (bundan sonra - Birlik adlandırılacaq) ümumi maraqlar əsasında birləşmiş, könüllülük, üzvlərinin hüquq bərabərliyi prinsipləri əsasında yaradılan, öz fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan və əldə edilən gəliri öz üzvlərinin arasında bölməyən qeyri-hökümət təşkilatıdır və fəaliyyəti Azərbaycan Respublikasının ərazisini əhatə edir.
1.2. Birlik öz fəaliyyətini Azərbaycan Respublikasının Konstitusiyası, "Qeyri-hökümət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanunu, "Bədən tərbiyyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanunu, digər normativ aktlar və bu Nizamnamə əsasında həyata keçirir.
1.3. Birlik 15.03.2005-ci il tarixdə 1105-Q3-1706 nömrə ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınmışdır.
Birliyin müstəqil balansı, üzərində adı yazılmış möhürü, ştampı, Azərbaycan Respublikasının banklarında hesablaşma hesabı və digər rekvizitləri vardır.
1.4. Birliyin yerləşdiyi ünvan: AZ1003, Bakı şəhəri Səbail rayonu, Neftçi Qurban Abbasov küçəsi 29.

## II. BİRLİYİN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

2.1. Birliyin əsas məqsədi üzgüçülük idman növünün inkişafına kömək etməkdən ibarətdir.
2.2. Birlik məqsədlərinə çatmaq üçün aşağıdakı vəzifələri həyata keçirir:

- Su idman növlərinin Azərbaycan Respublikasında inkişaf istiqamətlərini və perspektivlərini müəyyən etmək, bununla bağlı müvafiq fəaliyyətləri əlaqələndirmək və koordinasiya etmək;
- Su idman növlərinin inkişafına dair müvafiq normativ proqramları, metodiki tövsiyələri, planları, tədris materiallarını, inkişaf strategiyalarını tərtib etmək və bununla bağlı aidiyyəti dövlət orqanlarına təkliflər təqdim etmək;
- Su idman növləri üzrə Azərbaycan Respublikasının milli komandalarının müvafiq beynəlxalq yarışlarda, turnirlərdə, festivallarda, Olimpiya oyunlarında və digər bu kimi idman tədbirlərində iştirakını təmin etmək;
- Su idman növləri üzrə müxtəlif yarış, turnir və digər tədbirlərin keçirilməsi məqsədilə illik tədbirlər planlarını və turnir qrafiklərini tərtib etmək, su idman növləri üzrə müxtəlif yarışların keçirilməsinə dair əsasnamə və qaydaları işləyib hazırlamaq;
- Yüksək dərəcəli idmançıların hazırlığı və onların su idman növləri üzrə Avropa və Dünya çempionatlatında, birinciliklərində, Olimpiya Oyunlarına və digər beynəlxalq yarışlarda yüksək nailiyyətlər əldə etməsi məqsədilə müvafiq tədbirlər həyata keçirmək, idmançıların əldə etdiyi nəticələri təhlil edərək daha yüksək nəticələrin əldə olunması üçün əlavə tədbirlər görmək;
- Su idman növləri üzrə yüksək dərəcəli hakimlərin, məşqçilərin və idman mütəxəssislərinin hazırlanması məqsədilə lazımı tədbirlər görmək, o cümələdən onların yerli və xarici treninq və seminarlarda iştirakını təmin etmək;

- Azərbaycan Respublikasında su idman növləri üzrə müxtəlif beynəlxalq tədbirlərin, turnirlərin, festival və yarışların təşkil edilməsini təmin etmək;
- Su idman növlərini daha da populyarlaşdırmaq məqsədilə maarifləndirmə və təşviqat-təbliğat fəaliyyətini təşkil etmək;
- Su idman növlərinin əlavə maliyyələşdirmə mənbələrinin müəyyən edilməsi üzrə tədbirlər görmək;
- Gənclər arasında sağlam həyat tərzinin və onların vətənpərvərlik ruhunda tərbiyə edilməsini təşviq etmək məqsədilə müvafiq tədbirlər görmək;
- Federasiyanın fəaliyyəti ilə bağlı yarana biləcək mübahisələrin təşkilat-daxili həlli mexanizmlərini təmin etmək;
- İdmanda dopinq vasitələri və (və ya) üsullarından istifadəyə qarşı mübarizə aparmaq;
- Öz səlahiyyətləri çərçivəsində işləyib hazırladığı qayda və reqlamentlərin Ümumdünya Antidopinq Məcəlləsi, beynəlxalq standartlar, Azərbaycan Milli Antidopinq Agentliyinin və müvafiq beynəlxalq idman təşkilatının antidopinq qaydalarına uyğun olmasını təmin etmək;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

2.3. Bu Nizamnamədə nəzərdə tutulmuş vəzifələri həyata keçirmək üçün Birlik:

- müxtəlif kurslar və seminarlar, dəyirmi masa və görüşlər, sərgilər təşkil edir;
- ölkədə və xarici dövlətlərdə fəaliyyət göstərən müxtəlif qeyri-hökümət təşkilatları, regional və beynəlxalq qurumlarla əlaqə qurur və onlarla birlikdə layihələr həyata keçirir;
- məqsədləri və fəaliyyəti barədə məlumatı sərbəst yayır, qanunvericiliyə müvafiq qaydada mətbu nəşrlər təsis edir;
- Azərbaycan Respublikasının aidiyyəti dövlət, bələdiyyə orqanları və beynəlxalq təşkilatlarla əməkdaşlıq edir.

2.4. Birlik dövlət qeydiyyatına alındıqdan sonra otuz gün müddətində üzvlərinin reyestrinin aparılmasını təmin edir.
2.5. Birlik Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisinin və bələdiyyələrin seçkilərində iştirak edə bilməz.

## III. BİRLİYİN HÜQUQLARI

3.1. Birlik aşağıdakı hüquqlara malikdir:

- öz adından əqdlər bağlamaq, əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh kimi çıxış etmək;
- fəaliyyəti barədə məlumatı sərbəst yaymaq;
- Azərbaycan Respublikasının ərazisində və xaricdə filial və nümayəndəliklərini təsis etmək;
- banklarda hesablar açmaq və hesablaşmalar aparmaq;
- müstəqil balansa, möhürə, ştampa və digər rekvizitlərə malik olmaq;
- Birliyin yaradılması məqsədlərinə nail olmasına yönədilmiş sahibkarlıq fəaliyyətini həyata keçirmək;

- Müvafiq beynəlxalq idman təşkilatları ilə, o cümlədən Beynəlxalq Üzgüçülük Federasiyası və Avropa Üzgüçülük Federasiyası ilə əlaqə saxlamaq, onlar tərəfindən təşkil olunan tədbirlərdə, layihə və proqramlarda iştirak etmək;
- Su idman növləri tədbirlərinin kütləvi informasiya vasitələri ilə yayımlanması məqsədilə müqavilələr bağlamaq və reklam işinin təşkili vasitəsilə Federasiyaya əlavə maliyyə vəsaitləri cəlb etmək;
- Su idman növləri üzrə yerli idmançıların xarici idman klubları və federasiyaların və ya xarici idmançıların yerli idman klubları və federasiyaların tərkibində iştirak etməsi üçün müvafiq təkliflərə çıxış etmək, bununla bağlı müvafiq müqavilələr bağlamaq;
- Su idman növləri üzrə beynəlxalq yarışlarda, turnirlərdə, festivallarda, Olimpiya Oyunlarında və digər bu kimi idman tədbirlərində Azərbaycan Respublikasını təmsil edən milli komandaların heyətini formalaşdırmaq və təsdiq üçün müvafiq icra hakimiyyəti orqanına təqdim etmək;
- Azərbaycan Respublikasının ərazisində su idman növləri komplekslərinin tikintisində iştirak etmək və bu fəaliyyəti maliyyələşdirmək;
- Azərbaycan Respublikasında su idman növləri üzrə idmançıların bir idman klubundan başqa idman klubuna keçməsində, habelə hər hansı beynəlxalq turnirlərdə Federasiyasın adından rəsmi olaraq təmsil etməsində iştirak etmək;
- Beynəlxalq idman təşkilatlarına, o cümlədən Beynəlxalq Üzgüçülük Federasiyasına və Avropa Üzgüçülük Federasiyasına öz daimi və müvəqqəti nümayəndələrini təyin etmək;
- Su idman növləri üzrə idmançıları, məşqçi və hakimləri müvafiq geyim və digər lazımi əşya və texniki ləvazimatlar ilə təmin etmək;
- Digər yerli və beynəlxalq idman yönümlü təşkilatlarla üzv olmaq və onların fəaliyyətində iştirak etmək;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər hüqulardan istifadə etmək.

## IV. BİRLİYİN ƏMLAKI VƏ MALİYYƏ FƏALİYYƏTİ

4.1. Birliyin mülkiyyətində binalar, qurğular, mənzillər, avadanlıqlar, inventarlar, pul vəsaitləri, səhmlər, digər qiymətli kağızlar və bu Nizamnamə ilə nəzərdə tutulmuş fəaliyyətin maddi təminatı üçün qanunvericiliklə qadağan olunmamış növlərdə əmlak ola bilər.
4.2. Birlik öz öhdəliklərinə görə əmlakı ilə cavabdehdir. Bu əmlak yalnız Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq özgəninkiləşdirilə bilər.
4.3. Birliyin əmlakının pul və digər şəkildə formalaşdırılması mənbələri aşağıdakılardır:

- təsisçilərin və ya Birlik üzvlərinin müntəzəm və ya birdəfəlik üzvlük haqları;
- idarə, müəssisə, yerli və beynəlxalq təşkilatlarının və vətəndaşların könüllü verdikləri əmlak haqları və ianələri;
- səhmlər, istiqrazlar, başqa qiymətli kağız və əmanətlərdən alınan dividendlər, gəlirlər;
- öz əmlakından istifadə və onun satılması nəticəsində əldə edilən gəlirlər;
- qrantlar;
- sərgilərdən, konsertlərdən, yarışlardan və digər tədbirlərdən əldə olunan gəlirlər;

- təsis etdiyi müəssisələrin fəaliyyəti nəticəsində əldə olunan gəlirlər;
- reklam xidmətlərindən əldə olunan gəlir;
- qanunvericilikdə qadağan olunmamış digər mədaxillər.

4.4. Birliyin üzvləri onun mülkiyyətində daxil olan ayrı-ayrı obyektlər üzərində xüsusi hüquqlara malik deyil.
4.5. Birlik Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada öz fəaliyyətinin məqsədlərinə və əmlakın təyinatına müvafiq olaraq öz əmlakı üzərində sahiblik, istifadə və sərəncam hüququna malikdir.
4.6. Birliyin Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada öz fəaliyyətinin məqsədlərinə və əmlakın təyinatına müvafiq olaraq öz əmlakın üzərində sahiblik, istifadə və sərəncam hüququna malikdir.
4.6. Birliyin hesabına daxil olmuş məqsədli vəsait başqa istiqamətlərdə xərclənə bilməz.
4.7. Birlik siyasi partiyalara maliyyə və başqa maddi yardım göstərə bilməz.
4.8. Birlik qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə, statistik və sair hesabatlar tərtib edir və dövlət orqanlarına təqdim edir.

## V. BİRLİYİN TƏSİSÇİLƏRİ VƏ ÜZVLƏRİ, ONLARIN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

5.1. Birliyin təsisçiləri hüquqi şəxslər (dövlət hakimiyyəti və yerli özünüidarə orqanları istisna olmaqla) və ya 18 yaşına çatmış fiziki şəxslər ola bilərlər.
5.2. Təsisçilər bərabər hüquqlara malikdirlər. Təsisçilərin qarşılıqlı münasibətləri, hüquq və vəzifələri qanunvericiliklə, yaxud onların arasında bağlanmış müqavilə ilə və ya bu Nizamnamə ilə müəyyən edilir.
5.3. Azərbaycan Respublikasında hər bir fiziki və hüquqi şəxs (dövlət hakimiyyəti və yerli özünüidarə orqanları istisna olmaqla) ictimai birliyin üzvü ola bilər. Birliyin təsisçiləri həm də Birliyin üzvləri hesab olunurlar.
5.4. Birliyə üzvlərin qəbulu Birliyin İcraiyyə Komitəsi tərəfindən aparılır.
5.5. Birliyə daxil olmaq üçün İcraiyyə Komitəsinə yazılı şəkildə müraciət edilir. Ərizəyə bir ay müddətində baxılır. Səsvermə nəticəsində İcraiyyə Komitəsinin üzvlərinin yarıdan çoxu bu məsələyə müsbət münasibətlərini bildirdikdə, ərizəçi Birliyin üzvü seçilmiş hesab edilir.
5.6. Birliyin üzvləri öz aralarında bərabərhüquqlu olub aşağıdakı hüquqlara malikdirlər:

- bu Nizamnamədə və digər sənədlərdə nəzərdə tutulmuş qaydada təşkilatın idarəçiliyində iştirak etmək;
- Birliyin hər hansı seçkili, o cümlədən rəhbər orqanına seçmək və ya həmin orqanlarda təmsil olunmaq;
- Birliyin fəaliyyətində və təşkil etdiyi tədbirlərdə iştirak etmək;
- Birliyin rəhbər orqanlarının fəaliyyəti barədə məlumat almaq, fəaliyyətinə nəzarət etmək;
- öz mənafelərinin müdafiəsinə kömək göstərilməsi üçün Birliyə müraciət etmək;
- onun hüquq və vəzifələri ilə bağlı hər hansı məsələnin müzakirəsində şəxsən iştirak etmək, Birliyin müvafiq orqanlarına etirazını bildirmək və şikayət etmək.

5.7. Birliyin üzvü yalnız Birliyin müvafiq orqanları səlahiyyət verdikdə həmin orqanı təmsil edə və ya onun adından bəyanatla çıxış edə bilər.
5.8. Birliyin üzvləri aşağıdakı vəzifələri daşıyırlar:

- Birliyin Nizamnaməsinə əməl etmək;
- Birliyin seçkili orqanlarının qərarlarını yerinə yetirmək;
- Nizamnamə tələblərinə riayət etmək;
- Birliyin tədbirlərində iştirak etmək.

5.9. Birliyə üzvlük haqqının miqdarı Birliyin İcraiyyə Komitəsi tərəfindən müəyyən edilir.
5.10. Birliyə üzvlüyə aşağıdakı hallarda xitam verilir:

- könüllü olaraq Birliyin üzvlüyündən çıxdıqda;
- Birliyin üzvlüyündən çıxarıldıqda.

5.11. Birliyin üzvü aşağıdakı hallarda üzvlükdən xaric edilir:

- Birliyin adına ləkə gətirən hərəkətlərə yol verdikdə;
- mütəmadi olaraq Birliyin işində iştirak etməkdən boyun qaçırdıqda;
- Nizamnamə məqsədlərinə zidd hərəkət etdikdə.

5.12. Üzvlükdən çıxarılma İcraiyyə Komitəsinin qərarı ilə həyata keçirilə bilər.
5.13. Birlik üzvünün həmin qərardan Birliyin ali idarəetmə orqanına və məhkəməyə şikayət etmək hüququ vardır.

## VI. BİRLİYİN TƏŞKİLATİ STRUKTURU VƏ İDARƏETMƏ ORQANLARI

6.1. Birliyin ali idarəetmə orqanı ildə bir dəfədən az olmayaraq çağırılan Ümumi Yığıncaqdır.
6.2. Ümumi Yığıncaq Birliyin icra orqanının, təsisçilərdən birinin və ya üzvlərinin üçdə bir hissəsinin təşəbbüsü ilə çağırılır.
6.3. Birliyin təsisçilərinə və üzvlərinə Yığıncağın yeri və vaxtı haqqında iki həftə əvvəl məlumat verilməlidir.
6.4. Ümumi Yığıncağın səlahiyyətinə aşağıdakılar aiddir:

- Birliyin Nizamnaməsinin qəbulu və ona dəyişikliklər edilməsi;
- Birliyin əmlakının formalaşması və istifadə prinsiplərinin müəyyən edilməsi;
- Birliyin icra orqanlarının yaradılması və onların səlahiyyətlərinin vaxtından əvvəl dayandırılması;
- illik hesabatın təsdiq edilməsi;
- başqa təşkilatlarda iştirak;
- Birliyin yenidən təşkili və ləğv edilməsi;
- Birliyin icra orqanının rəhbərlərinin hesabatının dinlənilməsi.

6.5. Ümumi Yığıncaq yalnız Birlik üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətli hesab olunur.
6.6. Ümumi Yığıncaqda müzakirə olunan məsələlər haqqında qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Hər bir üzv bir səsə malikdir. Nizamnaməyə əlavə və dəyişiklərin

edilməsi və təşkilatın yenidən təşkili və ləğvi barədə qərarın qəbulu üçün 2/3 səs çoxluğu tələb olunur.
6.7. Birliyin fəaliyyətinə cari rəhbərliyi İcraiyyə Komitəsi həyata keçirir.
6.8. İcra orqanı prezidentdən, üç vitse-prezidentdən və beş nəfər digər üzvlərdən ibarət olan İcraiyyə Komitəsidir.
6.9. İcraiyyə Komitəsi kollegial icra orqanı olub aşağıdakı səlahiyyətlərə malikdir:

- Birliyin üzvlüyünə qəbul edir və üzvlükdən azad edir;
- təkliflər və layihələr irəli sürür;
- Birliyin filiallarını yaradır və nümayəndəliklərini açır;
- Birliyin başqa idarəetmə orqanlarının müstəsna səlahiyyətlərinə aid edilməyən bütün məsələləri həll edir.

6.10. İcraiyyə Komitəsi üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətli sayılır və qərarları sadə səs çoxluğu ilə qəbul edilir.
6.11. İcraiyyə Komitəsinin prezidenti, vitse-prezidentləri və digər üzvləri Birliyin Ümumi Yığıncağı tərəfindən 4 (dörd) il müddətinə seçilir.
6.12. Prezident:

- Birliyi təmsil edir, onun adından müqavilələr bağlayır, etibarnamələr verir, Ümumi Yığıncağın və İcraiyyə Komitəsinin qərarlarının icrasını təşkil edir;
- İcraiyyə Komitəsinin işinə rəhbərlik edir, İcraiyyə Komitəsinin iclaslarına sədrlik edir;
- Federasiyanın adından etibarnaməsiz çıxış edir;
- Federasiyanı müxtəlif tədbirlərdə təmsil etmək məqsədilə müvafiq nümayəndə heyətlərinin tərkibini təsdiq edir;
- Federasiyanın maliyyə təsərrüfat fəaliyyətini idarə edir;
- İşçiləri işə qəbul edir və işdən azad edir, onlar ilə əmək müqavilələri imzalayır, onlara həvəsləndirmə və tənbeh tədbirləri tətbiq edir;
- Əmr və sərəncamlar verir, maliyyə sənədlərini imzalayır;
- Banklarda bank hesablarının açır;
- Ümumi Yığıncaq tərəfindən və Nizamnamə ilə onun üzərinə qoyulan digər funksiyaları həyata keçirir.

6.13. Birliyin vitse-prezidentləri prezidentin göstərişləri əsasında fəaliyyət göstərir və prezidentə onun səlahiyyətlərinin icra edilməsində zəruri köməklik göstərir.
6.14. Baş katib Birliyin İcraiyyə Komitəsi tərəfindən 4 (dörd) il müddətinə təyin olunur və aşağıdakı funksiyaları yerinə yetirir:

- Bütün sənədləşmə və kargüzarlıq işini aparır, müvafiq sənədlərin layihələrini hazırlayır və İcraiyyə Komitəsinə təqdim edir;
- Su idman növləri üzrə yerli və beynəlxalq yarışların cədvəllərini aparır;
- Ümumi Yığıncaq, İcraiyyə Komitəsi tərəfindən və Nizamnamə ilə onun üzərinə qoyulan digər funksiyaları həyata keçirir.
- İdmançılara fəxri adların və mükafatların verilməsinə dair təkliflər hazırlayır, İcraiyyə Komitəsi tərəfindən görülmüş işlər barədə hesabatlar tərtib edir.

6.15. Birliyin Nəzarət-təftiş komissiyası birliyin vəzifəli şəxslərinin və üzvlərinin fəaliyyətinin Nizamnaməyə uyğun olması, habelə Birliyin maliyyə fəaliyyəti üzərində

nəzarəti həyata keçirir. NTK üzvlərinin sayı Ümumi Yığıncaq tərəfindən müəyyən edilir. NTK-nın səlahiyyət müddəti 4 (dörd) ildir.
NTK-nın qərarları sadə səs çoxluğu ilə qəbul edilir.
6.16. NTK Birliyin orqanlarından və üzvlərindən daxil olan müraciətlərə bir ay müddətində baxıb cavab verməlidir.
6.17. Dövlət qeydiyyatına alınmış Birlik Azərbaycan Respublikasının ərazisində və xaricdə filiallarını yarada, nümayəndəliklərini aça bilər. Birlik on gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə filial və (və ya) nümayəndəliyinin yaradılması haqqında məlumat verməlidir.

## VII. BİRLİYİN FƏALİYYƏTİNƏ XİTAM VERİLMƏSİ

7.1. Birliyin fəaliyyətinə onun yenidən təşkil edilməsi (birləşmə, qoşulma, bölünmə, ayrılma, çevrilmə) və ləğv edilməsi yolları ilə xitam verilir. Birliyin fəaliyyətinə xitam verilməsi mövcud qanunvericilikdə nəzərdə tutulmuş qaydada həyata keçirilir.
7.2 Birliyin fəaliyyətinə xitam verilməsi haqqında qərara əsasən ləğvetmə komissiyası yaradılır. Bu andan Birliyin İdarəçiliyi ilə əlaqədar bütün səlahiyyətlər ona keçir. Ləğvetmə komissiyası ləğvetmə balansını tərtib edir. Birliyin ləğvi zamanı büdcə ilə hesablaşmalardan və kreditorların tələbləri ödənildikdən sonra qalan əmlak qanunvericiliklə müəyyən olunmuş qaydada Nizamnamə məqsədlərinə, bu mümkün olmadıqda isə dövlət büdcəsinə yönəldilir. Birliyin ləğvi Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və digər qanunvericilik aktlarına əsasən həyata keçirilir.

## VIII. DİGƏR ŞƏRTLƏR

8.1 Bu Nizamnamədə nəzərdə tutulmayan məsələlər qanunvericiliklə tənzimlənir.
8.2 Gələcəkdə bu Nizamnamənin müddəaları qanunvericiliklə ziddiyyət təşkil edərsə, qanunvericiliyin müddəaları tətbiq edilir.
8.3 Birliyin maliyyə ili qeydiyyata alındığı vaxtdan başlayır və həmin ilin 31 dekabrında başa çatır. Növbəti maliyyə illəri isə 1 yanvarda başlayır və dekabr ayının 31-dək olan dövrü əhatə edir.